DÖVLƏT VERGİ XİDMƏTİ

# Aksizin tətbiqi dairəsi genişləndirilmiş, sıfır dərəcə ilə vergiyə cəlb olunan əməliyyatların əhatə dairəsi artırılmışdır

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2026-cı il tarixindən etibarən**

Aşağıdakı mallar üzrə aksiz dərəcələri tətbiq edilir:

- idxal olunan dövlət qeydiyyatına alınmalı olan kvadrisikllər üzrə - mühərrikin həcminin hər kubsantimetrinə görə **0.5 manat**,
- təqvim ili ərzində 1 ədəd mobil cihazın fiziki şəxsin şəxsi istifadəsi üçün idxalı istisna olmaqla, idxal olunan hər bir mobil cihaz üçün **20 manat**.

Aksizli malların ixracı və Azərbaycan Respublikasının ərazisində istehsal edilən, rüsumsuz ticarət mağazalarında satılması üçün xüsusi nişanı olan aksizli malların rüsumsuz ticarət mağazalarına təqdim edilməsi sıfır dərəcə ilə vergiyə cəlb olunur.

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Nə dəyişdi?

01.01.2026-cı il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən yalnız aksizli malların ixracı sıfır dərəcə ilə vergiyə cəlb olunurdu.

❖ kvadrisikllər və mobil cihazlar vergiyə cəlb olunmurdu.

## Əlavə qeyd

Azərbaycan Respublikasında istehsal olunan dövlət qeydiyyatına alınmalı olan kvadrisikllər və mobil cihazlar üzrə aksiz dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydada tətbiq edilir.

BAKI — 2026